**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
# FƏRMANI

**«Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr və dəyişiklik edilməsi barədə**

«Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram**:

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 481; 2005-ci il, № 5, maddə 403; 2008-ci il, № 3, maddə 175, № 11, maddə 970) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 8.4-1-ci bənd əlavə edilsin:

«**8.4-1.** dini qurumlara münasibətdə qanunla nəzərdə tutulmuş qaydada və hallarda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirir;».

**2.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 111 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddə 619; 2008-ci il, № 11, maddə 970) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 10.18-1-ci bənd əlavə edilsin:

«**10.18-1.** poçt xidməti göstərən müəssisələrə münasibətdə qanunla nəzərdə tutulmuş qaydada və hallarda cinayət yolu ilə əldə edilmiş pul

vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirir;».

**3.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 323, № 12, maddə 1034; 2007-ci il, № 11, maddə 1105, № 12, maddə 1246) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 9.32-1-ci bənd əlavə edilsin:

«**9.32-1.** qeyri-hökumət təşkilatlarına münasibətdə qanunla nəzərdə tutulmuş qaydada və hallarda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirmək;».

**4.** «Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 2, maddə 61) aşağıdakı əlavələr və dəyişiklik edilsin:

**4.1.** həmin Fərmanla təsdiq edilmiş «Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 8.29-1-ci bənd əlavə edilsin:

«**8.29-1.** öz səlahiyyətləri daxilində qanunla nəzərdə tutulmuş qaydada və hallarda Nazirliyin strukturuna daxil olan müvafiq qurumlar vasitəsilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirmək;»;

**4.2.** həmin Fərmanla təsdiq edilmiş «Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti haqqında Əsasnamə»nin 8.13-cü bəndi aşağıdakı redaksiyada verilsin:

«**8.13.** sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçiləri tərəfindən «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarət etmək;»;

**4.3.** həmin Fərmanla təsdiq edilmiş «Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 8.2-1-ci bənd əlavə edilsin:

«**8.2-1.** qiymətli metalların və qiymətli daşların, o cümlədən qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatlarının alqı-satqısı ilə məşğul olan hüquqi şəxslər tərəfindən «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarət etmək;».

**5.** Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 mart tarixli 70 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 3, maddə 162) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 8.2.10-1-ci bənd əlavə edilsin:

«**8.2.10-1.** qiymətli kağızlar bazarının peşəkar iştirakçıları olan brokerlər, qiymətli kağızların idarə olunması üzrə peşəkar fəaliyyəti həyata keçirənlər, lotereya təşkilatçısı və investisiya fondlarına münasibətdə qanunla nəzərdə tutulmuş qaydada və hallarda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirmək;».

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 20 iyul 2009–cu il**
**№ 130**

**«Azərbaycan» qəzetində dərc edilmişdir (24 iyul 2009–cu il, № 160).**